# Dövlət başçısı qarşıya mühüm vəzifələr qoydu



***Prezident İlham Əliyevin Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən proqam xarakterli çıxışını diqqətlə dinlədim. Cənab Prezident bildirdi ki, meliorasiya prioritet sahələrdən biridir. Mən bu sahəyə həmişə çox böyük diqqət göstərmişəm. Bu gün, indiki şəraitdə bu sahənin əhəmiyyəti daha da artır.***

Son illər ərzində bu sahədə, xüsusilə köhnə infrastrukturun təmiri ilə bağlı əsaslı işlər görülmüşdür. Çünki əsas infrastruktur sovet dövründə yaradılmışdı və vaxt keçdikcə yararsız vəziyyətə düşmüşdü, ona görə buna ehtiyac var idi.

Mən bu sahədə uzun illər fəaliyyət göstərmişəm və dövlət başçımızın bu sahəyə göstərdiyi diqqət və qayğının canlı şahidiyəm. Prezidentin tapşırığı ilə neçə-neçə su anbarı inşa edildi və bu gün onlar meliorasiya sahəsində problemlərin həllində əhəmiyyətli rol oynayır. Eyni zamanda, içməli su təminatı da Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyəti tərəfindən həmişə diqqət mərkəzində olmuşdur. Cəmiyyət ölkəmizdə bir neçə içməli su layihəsini də icra etmişdir.

Amma yeni dövr yeni yanaşmalar tələb etdiyindən bu sahənin də yeniləşməsi vacib məsələ kimi qarşıda durur. Cənab Prezident çıxışında dedi: “Meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, xüsusilə su ehtiyatları o qədər də böyük həcmdə olmayan ölkələrdə bunun daha da böyük əhəmiyyəti var. Bir daha demək istəyirəm ki, su anbarlarının, su kanallarının tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər biz, əlbəttə ki, suyun səmərəli istifadəsindən də həmişə narahat idik. Bu sahədə əldə edilmiş uğurlar var, eyni zamanda, çətinliklər var, çatışmazlıqlar var”.

Dövət başçımız bu problemlərin aradan qaldırılmasının vacıbliyini də diqqətə çatdırdı. Prezident bildirdi ki, qarşıda duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılması, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsi, müasir texnologiyaların ölkəmizə gətirilməsidir. Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik. Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir.

Biz suvarma sistemi işçiləri üşün bu göstərişlər əsas fəaliyyət istiqaməti olmalıdır. Sudan səmərəli istifadə bu gün olduqca vacib məsələdir və gələcək fəaliyyətimizdə bu məsələyə diqqəti daha da artırmalıyıq.

Kənd təsərrüfatının inkişafına diqqət artırıldıqca yeni suvarma sistemlərinin qurulması, köhnələrin yenidən bərpa edilərək istifadəyə verilməsi, meliorativ tədbirlərin həyata keçirilməsi mühüm vəzifə kimi qarşıda durur. Bu gün suvarma suyundan ədalətli şəkildə istifadə edilməlidir. Bunu cənab Prezidentimiz bizdən tələb edir. “Təhlil aparılarkən biz bir şeyə də rast gəldik – suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır. Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlilərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır” – deyə dövlət başçısı bildirmişdir.

Son illər ərzində vaxtilə suvarılmayan torpaqlara su verilir. Bu torpaqların həcmi 100 min hektarlarla ölçülür. Vaxtilə, ümumiyyətlə, su görməyən torpaqlara, yaxud da ki, qismən suvarılan torpaqlara suyun verilməsi bu bölgələri canlandırdı və 100 minlərlə hektar torpağa su verildi. Bunlar da cənab Prezidentin göstərişləri ilə həyata keçirilmişdir.

Ölkə başçısı həmin qəbul zamanı öz göstəriş və tövsiyələrini verdi. İnanırıq ki, bu göstərişlər uğurla həyata keçiriləcək və Azərbaycanda kənd təsərrüfatının inkişafında su problemi tədricən aradan qaldırılacaq.

***Şakir ƏHMƏDOV,***
***Göyçay Suvarma Sistemləri İdarəsinin rəisi***

Xalq qəzeti 2021.- 7 aprel.- S.3.